# NAXÇIVAN MUXTAR RESPUBLİKASININ
# NAZİRLƏR KABİNETİ

# QƏRAR

**Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin 2023-cü il 17 noyabr tarixli 213-VI FR nömrəli Fərmanı ilə təsdiq edilmiş "Naxçıvan Avtomobil Yolları Dövlət Agentliyi" publik hüquqi şəxsin Nizamnaməsi"ndə dəyişiklik edilməsi haqqında**

Naxçıvan Muxtar Respublikası Konstitusiyasının 39-cu maddəsinin I hissəsinin səkkizinci abzasını rəhbər tutaraq, Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin 2023-cü il 17 noyabr tarixli 213-VI FR nömrəli Fərmanı ilə təsdiq edilmiş "Naxçıvan Avtomobil Yolları Dövlət Agentliyi" publik hüquqi şəxsin Nizamnaməsi"ndə aşağıdakı dəyişikliklər edilsin:

1.1. 1.2-ci bənddən "və Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin" sözləri çıxarılsın;

1.2. 3.1.32-ci və 3.2.9-cu yarımbəndlərdə "Ali Məclisi sədrinin" sözləri "Nazirlər Kabinetinin" sözləri ilə əvəz edilsin;

1.3. 4-cü hissə üzrə:

1.3.1. 4.3-cü bənddə "Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri" sözləri "Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəliyi ilə razılaşdırmaqla, Naxçıvan Muxtar Respublikasının Baş naziri" sözləri ilə əvəz edilsin;

1.3.2. 4.5.2-ci yarımbənddən "müvafiq olaraq Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədrinə və" sözləri çıxarılsın;

1.3.3. 4.5.3-cü yarımbənddə "Respublikası Ali Məclisinin sədrinə" sözləri "Respublikasının Nazirlər Kabinetinə" sözləri ilə əvəz edilsin;

1.3.4. 4.7.3-cü yarımbənd ləğv edilsin;

1.4. 6-cı hissə üzrə:

1.4.1. 6.1-ci bənddən “Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri, həmçinin verilmiş təsisçi səlahiyyətləri çərçivəsində” sözləri çıxarılsın;

1.4.2. 6.2-ci bənddə “Respublikası Ali Məclisinin sədrinə” sözləri “Respublikasının Nazirlər Kabinetinə” sözləri ilə əvəz edilsin;

1.5. 9-cu hissədə “Respublikası Ali Məclisinin sədri” sözləri “Respublikasının Nazirlər Kabineti” sözləri ilə əvəz edilsin.

2. Bu Qərar imzalandığı gündən qüvvəyə minir.

**Cabbar Musayev**
**Naxçıvan Muxtar Respublikasının Baş naziri**

Naxçıvan şəhəri, “ 28 ” “ iyul ” 2026-cı il

№ 29